# İBRAHİMOV MÜBARİZ AĞAKƏRİM OĞLU



Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonu Əliabad kəndində anadan olub. 1994-cü il şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olub. 11 il oxuduqdan sonra 2005-ci ildə orta məktəbi bitirib. Elə həmin il hərbi xidmətə cağrılıb. Xidmətinə Daxili Qoşunların (DQ) N saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə (XTB) başlamışdır. Xidməti zamanı çavuş rütbəsi almış və xidmətini 2007-ci ildə bitirmişdir. Bir müddət mülki işlərdə işlədikən sonra 2009-cu ilin avqust ayında öz arzusu ilə yenidən hərbi xidmətə yollanıb. Bu dəfə artıq Gizir kimi çalışmağa başlayıb. 2010-cu ilin aprel ayından Tərtər rayonundakı N saylı hərbi hissəsində xidmətinə başlayır. Ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi və Xocalıda törətdikləri soyqırım Mübarizin qəlbini göynədir və düşmənə qarşı nifrətini artırır. Nəhayət 19 iyun 2010-cu il tarixində gecə saat 23:30-radələrində düşündüyü əməliyyata başlayır. O, 1 km-lik neytral məsafəni (minalanmış sahəni) tək keçir və mənfur düşmənlərimizin ağlasığmaz sayda əsgər və zabitini elə birinci həmlədə məhv edir. Düşmənin öz silahlarını özünə istifadə edərək 5 saat tək orduya qarşı döyüşür. Düşmən postunu keçmiş və 6 saat döyüşdükdən sonra duşmənin 140-dan çox əsgər və zabitini məhv etmişdir. Qayıtmaq imkanı ola-ola geri dönməmiş daha da irəli getmiş və vətən yolunda ən böyük arzusu olan şəhidlik zirvəsinə ucalmışdır. Onun bu qəhrəmanlığı sayəsində Ermənistanda 3 günlük matəm elan olunmuşdur. Bakı şəhərindəki 2-ci Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2010-cu il tarixli 1040 saylı Fərmanı ilə İbrahimov Mübariz Ağakərim oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Biləsuvar şəhərində lisey-məktəb kompleksi və küçə onun adını daşıyır. Oxuduğu orta məktəbdə xatirə muzeyi yaradılıb. 2008-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi "İstiqlal" snayper tüfəngləri ailəsindən 12.7 mm çaplı ikinci tüfəng onun şərəfinə "Mübariz" adlandırılıb. 2010-cu ildə rejissor Etibar Məmmədov Mübariz İbrahimova həsr edilən "Müqəddəs zirvə" adlı film çəkilmişdir. 2011-ci il 15 iyunda Biləsuvar şəhərində Mübariz İbrahimovun heykəlinin açılışı olub. Həmin ildə “Palmali” şirkətinin Türkiyədə hazırlatdığı tanker onun şərəfinə "Mübariz İbrahimov" adlandırılıb. 2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto Parkında Azərbaycan icmasının təşəbbüsü ilə Mübariz İbrahimov adına xatirə lövhəsi vurulub. 2016-cı ildə Sumqayıtda küçələrdən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib. 2016-cı ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində heykəli ucaldılmışdır.